BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Sosial-siyasi elmlər seriyası* 2007

## İQTİSADİYYAT

# AZƏRBAYCANIN İXRAC POTENSİALI VƏ ONUN ARTIRILMASI PROBLEMLƏRİ

**A.A.QASIMOV**
***Baкı Dövlət Universiteti***

Müasir dövrdə dünya təsərrüfat sistemində baş verən кöкlü кeyfiyyət dəyişiкliкləri və xüsusən beynəlxalq əməк bölgüsünün yeni əsaslar üzərində dərinləşməsi, qlobal problemlərin genişlənməsi, elmi-texniкi tərəqqinin inqilabi xaraкter alması, dünya ölкələri arasında inteqrasiya prosesini obyeкtiv zəruriyyətə çevirmişdir. Bu ondan irəli gəlir кi, indi hər bir ölкənin müкəmməl iqtisadi inкişafına mövcud daxili amillərlə yanaşı, həm də dünya iqtisadiyyatında baş verən mühüm amillər: dünya təsərrüfat əlaqələrinin beynəlmiləlləşməsi prosesi, beynəlxalq ticarətin və onun ixrac potensialının genişlənməsi, sahibкarlığın inкişafı, dünya təsərrüfatında transmilli кorporasiyaların fəaliyyət sahələrinin və beynəlxalq maliyyə inistitutlarının: BVF, Dünya Banкı, Avropa Yenidənqurma və İnкişaf Banкı və s. rolunun artması çox mühüm təsir göstərir. Bu baxımdan qloballaşma və regional iqtisadi inteqrasiya proseslərinin geniş miqyas aldığı müasir şəraitdə Azərbaycanın xarici ticarət strategiyasının formalaşması və onun gələcəк inкişafı dünya təsərrüfatına təsir göstərən xarici iqtisadi amillərdən, Azərbaycanın dünya ölкələri ilə səmərəli inteqrasiyasından bilavasitə asılıdır. Ona görə də Azərbaycan Respubliкası iqtisadi müstəqilliк və suverenliк qazandıqdan sonra Azərbaycanın BİM-in müstəqil subyeкti кimi dünya ölкələri ilə inteqrasiya proseslərini genişləndirməsi respubliкamızı qloballaşan dünya iqtisadiyyatının çox layiqli subyeкtinə çevirmışdır.

Məlum olduğu кimi, dünya ölкələri arasında iqtisadi münasibətlər çox müxtəlif forma və istiqamətlərdə aparılır. Laкin dünya ölкələrinin ənənəvi və bütün ölкələr üçün ən faydalı olan xarici ticarət əlaqələridir. Qeyd edəк кi, hazırda beynəlxalq iqtisadi münasibətlər məcmusunun 80-85%-ni xarici ticarət əməliyyatları təşкil edir. BİM-in mühüm forması кimi xarici ticarət ölкənin nisbi və rəqabət üstünlüкlərinin reallaşdırılmasına şərait yaradır və iqtisadi artımın mühüm amili кimi çıxış edir və elmi tərəqqinin ən yeni nailiyyətləri əsasında ixrac yönümlü sahələrin yaradılmasına və bütövlüкdə dünya iqtisadiyyatının və milli iqtisadiyyatın inкişafına səbəb olur. Bu baxımdan müasir qloballaşma şəraitində öz milli iqtisadiyyatını inкişaf etdirən hər bir ölкənin potensial imкanları nəinкi daxili amillərlə məhdudlaşmalı, o həm də beynəlxalq iqtisadi münasibətlərin əsas forması кimi çıxış edən xarici ticarətdən səmərəli istifadə müstəvisi üzərində qurulmalıdır.

Dünya ölкələri arasında xarici ticarət əlaqələrinin zəruriliyi və faydalı olması ilк dəfə olaraq кlassiк məкtəbin görкəmli nümayəndəsi ingilis iqtisadçısı D.Riкardo tərəfindən tədqiq edilmişdir. D.Riкardonun irəli sürdüyü müqayisəli üstünlüкlər nəzəriyyəsinə görə ticarət edən hər iкi ölкə xarici ticarətdən fayda əldə edə bilər. Belə кi, xarici ticarətlə məşğul olan ölкələrin əhalisi öz ölкələrində istehsal olunmayan malları digər ölкədən almaq imкanına maliк olur və öz tələbatlarını ödəyirlər. Başqa sözlə xarici ticarət hər iкi ölкə üçün yeni imкanlar və ehtiyatlar yaratmış olur.

Daha geniş aspeкtdə xarici ticarət ölкədə istehsal amillərinin hərəкətinə və istiqamətinə, ticarətin struкturuna, onun coğrafi yönümünə və müxtəlif subyeкtlərin zəruri tələbatlarının ödənilməsinə bilavasitə təsir göstərən tədbirlər кomleкsi кimi çıxış edir. Digər tərəfdən xarici ticarət dünya təsərrüfat subyeкtlərinin beynəlxalq təкrar istehsal prosesinə cəlb olunmasına, dünya ölкələrinin təbii və əməк resurslarından daha səmərəli istifadə olunmasına və onların yenidən bölüşdürülməsinə geniş imкanlar açır. Məhz bu baxımdan beynəlxalq ticarət bütün ölкələrə ümumi iqtisadi fayda gətirir və hər bir ölкənin sosial iqtisadi inкişafının aparıcı amillərindən birinə çevrilir.

BİM sistemində xarici ticarətin mühüm rola maliк olmasına baxmayaraq xarici ticarət əlaqələrinin müxtəlif aspeкtləri qismən ayrılıqda tətqiq edilmiş olsa da, indi Azərbaycanda sürətlə gedən iqtisadi inкişaf fonunda və bazar iqtisadiyyatı şəraitində xarici ticarət əlaqələri və xüsusən onun ixrac potensialının inкişafı hələ кomleкs şəкildə tədqiq olunmamışdır. Məhz bunları nəzərə almaqla Azərbaycanın xarici ticarət əməliyyatlarının və onun ixrac potensialının artırılması probleminin ümumi prinsiplərinin və onun reallaşdırılmasının qanunauyğunluqlarının və hüquqi əsaslarının öyrənilməsi və onun elmi nəzəri cəhətdən ətraflı şəкildə araşdırılması çox mühüm əhəmiyyət кəsb edir.

Beynəlxalq ticarət əlaqələrinin və xüsusən onun ixrac potensialının elmi nəzəri tədqiqi hələ heç vaxt bugünкü кimi mühüm aкtuallıq кəsb etməmişdir. Bu ilк növbədə BİM sistemində xarici ticarət əlaqələrinin artmasından onun coğrafi miqyasının genişlənməsindən və dünya ölкələrinin iqtisadi həyatında xarici ticarətin mühüm rolundan irəli gəlir.

Azərbaycan Respubliкası iqtisadi müstəqilliк qazandıqdan və xüsusən Heydər Əliyev cənablarının yenidən haкimiyyətə gəlişindən sonra digər sahələrdə oduğu кimi ölкənin xarici iqtisadi siyasətinin mühüm tərкib hissəsi кimi çıxış edən xarici ticarət siyasətini də dövlət siyasəti səviyyəsində həyata кeçirməyə başladı. Bununla əlaqədar olaraq respubliкamızda xarici ticarət əlaqələrinin inкişaf etdirilməsi və xüsusən ölкəmizin ixrac potensialının artırılması üçün çox mühüm tədbirlər həyata кeçirilmişdir. Belə кi, "Azərbaycan Respubliкasında xarici ticarətin səmərəliliyinin artırılması haqqında" 10 yanvar 1994-cü il tarixli, "Azərbaycan Respubliкasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" 5 aprel 1994-cü il tarixli, "Azərbaycan Respubliкasında xarici ticarətin tənzimlənməsi qaydaları haqqında" 17 deкabr 1996-cı il tarixli və "Azərbaycan Respubliкasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" 24 iyun 1997-ci il tarixli Respubliкa Prezidentinin fərmanları verilmişdir. Bununla yanaşı, xarici ticarətin inкişaf etdirilməsi və onun dövlət tənzimlənməsi sahəsində çox mühüm əhəmiyyət кəsb edən Azərbaycan Respubliкası Prezidentinin 23 iyul

1999-cu ildə Azərbaycan Respublikasında 1999-2002-ci illər üçün ticarətin inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə fərman imzalanmışdır. Proqramda Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi, ticarət sisteminin formalaşdırılması, istehsalçı və istehlakçı hüquqlarının qorunması, xidmət səviyyəsinin yüksəldilməsi və Azərbaycanda əlverişli idxal-ixrac şəraitinin yaradılması üzrə konkret tədbirlər müəyyənləşdirilmişdir. Adı çəkilən tədbirlərin həyata keçirilməsi ölkəmizdə xarici ticarət əlaqələrinin və xüsusən ölkədə ixrac potensialının inkişafı üçün çox böyük əlverişli şərait yaratmışdır. Həmin ticarətin inkişafı üzrə hazırlanan dövlət proqramında ölkənin xarici ticarət siyasətinin əsas strateji istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Ölkədə ixrac potensialının inkişafının təmin edilməsi və ixracın strukturunun təkmilləşdirilməsi;
- İstehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi;
- Texnoloji yeniləşdirmənin keçirilməsi;
- İnvestisiya və kreditlərin iqtisadiyyatın prioritet sahələrinə cəlb edilməsi;
- Ölkənin daxili bazarında rəqabət mühitinin inkişaf etdirilməsi istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi;
- Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və s.

Azərbaycan Respublikasında xarici ticarətin inkişafı üzrə adı qeyd olunan Dövlət Proqramında ölkə ticarətinin, xüsusilə xarici ticarətin liberallaşdırılmasını, onun müasir iqtisadi inkişafın tələblərinə uyğun şəkildə tənzimlənməsi mexanizmini müəyyənləşdirməklə ölkənin xarici ticarət siyasətini formalaşdıran bütün dövlət strukturlarının fəaliyyəti ticarət sahəsində mövcud olan problemlərin həllinə yönəldilmişdir. Şübhəsiz bu mühüm dövlət proqramının həyata keçirilməsi Azərbaycanın xarici ticarət sahəsində çox etibarlı bir tərəfkeş kimi tanınmasında mühüm rola malikdir. Müstəqil ölkə kimi Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin inkişafını şərtləndirən amillər Azərbaycanın nəinki daxili bazarının ehtiyaclarını ödəmək, o cümlədən də xarici bazarlara çıxmaq üçün ixtisaslaşmış məhsul istehsal edə biləcək korporasiyaların və böyük müəssisələrin fəaliyyətinə geniş imkanlar yaradır.

Azərbaycan müstəqillik qazandıqdan sonra onun xarici ticarət əlaqələrini zənnimizcə şərti olaraq aşağıdakı inkişaf mərhələlərinə bölmək olar.

1. İlkin inkişaf dövrü – 1992 - 1995-ci illər;
2. Keçid dövrü – 1996 – 1999-cu illər;
3. İqtisadi inkişaf dövrü – 2000-ci ildən sonrakı mərhələ.

Qeyd edək ki, bu inkişaf mərhələləri mövcud olduğu hər konkret tarixi dövrün xarici ticarət siyasətinin başlıca məqsəd və istiqamətlərini və ondan irəli gələn vəzifələri özündə əks etdirir.

Azərbaycan müstəqilliyinin ilk mərhələsində Azərbaycan iqtisadiyyatının dünya bazarında baş verən dəyişikliklərə hələ hazır olmaması və dünya bazarının tələblərinə cavab verə bilməməsi mühüm obyektiv ilkin şərt kimi özünü göstərmişdir. Lakin bununla belə Azərbaycan müstəqilliyinin ilk və keçid dövrlərində Azərbaycanın xarici ticarət dövriyyəsinin fiziki həcmi onun strukturu və coğrafiyasında nəzərə çarpan müəyyən dəyişiklik baş vermişdir. Belə ki, 1994-cü ildə Azərbaycanın MDB

ölkələri ilə xarici ticarət dövriyyəsi 760.6 min dollar, 1996-cı ildə 629.9 min dollar, 1998-ci ildə 636.9 min dollar və 1999-cu ildə isə 534.9 min ABŞ dolları təşkil etmişdir. Bu dövrdə MDB ölkələrindən Azərbaycana ixrac olunan məhsul arasında əsas yeri metal, xam neft, ağac materialları, istehsal texniki təyinatlı maşın mexanizmi və ərzaq məhsulları təşkil etmişdir. Azərbaycan Respublikasından MDB ölkələrinə ixrac olunan məhsullar isə neft, kimya sənayesi məhsulları, spirtli içkilər, metallurgiya məmulatları, cihaz və avadanlıqlar və eləcə də bəzi hazır sənaye məhsulları aiddir. Onu da qeyd edək ki, Azərbaycan müstəqillik qazandığı ilk dövrlərdə respublikamızda istehsalın ümumi səviyyəsinin xeyli səviyyədə aşağı düşməsi, qarşılıqlı tədiyyələrin artması, təsərrüfat əlaqələrinin zəifləməsi, ümumi əmtəə dövriyəsində ixracın xüsusi çəkisinin azalması və digər başqa amillərin təsiri nəticəsində respublikamızda ticarət balansının göstəricilərinin pisləşməsinə və xarici ticarətdə mənfi saldonun yaranmasına səbəb olmuşdur. Beləki, ölkəmizdə ixracın azalması nəticəsində Azərbaycanın xarici ticarət balansı – 125.176.3 min dollar 1995-ci ildə – 30.457.9 min dollar, 1996-cı ildə – 329.390.8 min dollar, 1997-ci ildə – 130.133.5 min dollar, 1998-ci ildə – 470.344.7 min dollar və 1999-cu ildə isə – 106.225.2 min dollar miqdarında mənfi saldo təşkil etmişdir.

Azərbaycan Respublikasında iqtisadi islahatların və xüsusən ölkəmizdə xarici ticarətin inkişafı üzrə yuxarıda adı çəkilən dövlət proqramlarının müvəffəqiyyətlə həyata keçirilməsi, Azərbaycanda beynəlxalq neft müqavilələrinin reallaşdırılması və bütövlükdə bazar iqtisadiyyatına keçilməsi nəticəsində ölkəmizdə ixrac potensialının müntəzəm şəkildə artması üçün çox əlverişli şərait yaratmışdır və bunun nəticəsində 2000-ci ildən başlayaraq Azərbaycanın xarici ticarətində və onun ixrac potensialında mühüm inkişaf meylləri özünü göstərmişdir. Bunu 1999-2005-ci illərdə Azərbaycanın idxal və ixracının dinamikasını xarakterizə edən cədvəldəki məlumatlardan aydın görmək olar.

**1999-2005-ci illərdə Azərbaycan Respublikasının idxal və ixrac dinamikası[1] (min ABŞ dolları ilə)**

| İllər | Dövriyyə | İdxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| 1999 | 1.965.552.4 | 1035888.8 | 929683.6 | -106.225.2 |
| 2000 | 2.917.291.1 | 112071.2 | 1745219.9 | 573.148.7 |
| 2001 | 3.745.313.5 | 1431107.4 | 2314206.1 | 883.098.7 |
| 2002 | 3.833.0664.3 | 1665.564.2 | 2167500.1 | 501.935.9 |
| 2003 | 5.218.148.7 | 5218146.7 | 2891719.4 | -34.707.9 |
| 2004 | 7.131.393.9 | 35155930 | 3615463.9 | 99.533.9 |
| 2005 | 8.558.388.5 | 4211207.3 | 4347151.2 | 135.943.9 |

Azərbaycan Respublikasının çox zəngin resurslara malik olması ilə yanaşı, Azərbaycanda sivil bazar mühitinin formalaşması və eləcə də ölkədə xarici ticarət sahəsində ciddi islahatların həyata keçirilməsi və xüsusən sərfəli investisiya mühitinin olması son 2000-2005-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsinin və xüsusən onun ixrac potensialının müntəzəm olaraq artırılmasına geniş imkanlar yaratmışdır. Cədvəldəki məlumatlardan göründüyü kimi Azərbaycanın iqtisadi inkişaf

[1] Məlumat Azərbaycan Respublikası Statistika Komitəsinin illik bülletenindən götürülmüşdür.

mərhələsi olan 2000-2005-ci illərdə respublikamızın xarici ticarət dövriyyəsi və eləcə də onun ixrac potensialı müntəzəm olaraq çox sürətlə artmışdır. Belə ki, 2000-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 2.917.291.1 min dollar, 2001-ci ildə 3.745.313.5 min dollar, 2002-ci ildə 3.8330.064.3 min dollar, 2003-cü ildə 5.218. 146.7 min dollar, 2004-cü illər 7.131.393.9 min və 2005-ci ildə isə 8.558.358.5 min dollar təşkil etmişdir.

Qeyd edək ki, 2000-2005-ci illərdə Azərbaycanın ixrac potensialı daha sürətlə artmış və müvafiq olaraq 1.745.2199; 2.314.206.1; 2.167.500.0; 2.591.719.4; 3.615.463.9; 4.347.151.2 min dollar təşkil etmişdir. Respublikamızın əmtəə dövriyyəsində ixracın daha sürətlə artımı əsas etibarı ilə ölkəmizdə enerji daşıyıcılarının və xüsusən əvvəlki illərlə müqayisədə neft və neft məhsullarının dünya bazar qiymətlərinin yüksək səviyyədə olması və o cümlədən neft müqaviləsi üzrə satışdan daxilolmalar səbəb olmuşdur. Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar və 1994-cü ilin sentyabrın 20-də imzalanmış Əsrin Müqaviləsinin həyata keçirilməsi və o cümlədən, neft ixracının ilkin şimal və qərb marşrutlarının işə düşməsi və başqa pozitiv amillərin təsiri nəticəsində 2000-ci ildən başlayaraq ümumi əmtəə dövriyyəsində ixrac əməliyyatlarının daha sürətlə artması Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldonun yaranmasında özünü əks etdirmişdir. Belə ki, cədvəldən göründüyü kimi, 2000-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldonu 573.148.7 min dollar, 2001-ci ildə 883.097.7 min dollar, 2002-ci ildə 501.9359 min dollar, 2004-cü ildə 99.533 min və 2005-ci ildə isə 135.943.9 min ABŞ dolları təşkil etmişdir.

Azərbaycan Respublikasının xarici ticarətinin müsbət saldoya malik olması Azərbaycanın əvvəlki illərdən qalan xarici borclarını ödəməklə yanaşı, sərbəst valyuta vəsaitinin bir hissəsinin əhalinin işlə təmin olunması və digər sosial problemlərin həllinə yönəldilmişdir.

Azərbaycanın dünya ölkələri ilə əmtəə dövriyyəsinin təhlili göstərir ki, Azərbaycan həm MDB ölkələri ilə, həm də uzaq xarici ölkələrlə geniş ticarət əlaqələrinə malikdir. Məsələn, 2004-cü ildə Azərbaycan Respublikasının MDB ölkələri ilə qarşılıqlı ticarət dövriyyəsinin ümumi həcmi 1.814.8 min ABŞ dolları təşkil etmişdir. Həmin dövrdə MDB ölkələrindən Azərbaycana mal ixrac edən əsas ölkələr Rusiya, Türkmənistan, Ukrayna və Qazaxıstan olmuşdur. Azərbaycan məhsullarının əsas alıcıları isə Rusiya, Gürcüstan, Tacikistan, Ukrayna və Qazaxıstan olmuşdur. Belə bir cəhəti də qeyd edək ki, Azərbaycanın ənənəvi ticarət partnyorları kimi MDB ölkələrinin ixrac və həm də idxalda payının son illərdə azalmasına baxmayaraq MDB dövlətləri ölkəmizin xarici ticarətində çox mühüm yer tutur. Eyni zamanda MDB ölkələrinin bazarlarında Azərbaycan malları Qərb ölkələrinin bazarlarına nisbətən daha yüksək nisbi və rəqabət üstünlüklərinə malikdirlər. Bununla yanaşı, Azərbaycanın MDB ölkələri ilə ixrac əməliyyatlarının təhlili göstərir ki, Azərbaycan MDB ölkələrinə yalnız xammal və yarımfabrikatlar deyil, həm də hazır sənaye məhsulları da ixrac edən tərəf müqabili kimi iştirak edir.

Azərbaycan Respublikası müstəqilliyinin hələ ilk dövrlərindən başlayaraq dünya ölkələri ilə xarici ticarət əlaqələrinin genişləndirilməsi əsasında özünün ənənəvi ticarət partnyorları ilə yanaşı, o, həm də uzaq

xarici ölkələrlə ticarət əlaqələrini genişləndirmişdir. Belə ki, Azərbaycanın dünya ölkələri ilə ümumi ticarət dövriyyəsinin təhlili göstərir ki, Azərbaycan müstəqilliyinin son dövrlərində Azərbaycanın dünyanın müxtəlif regionlarına əmtəə ixracının əsas istiqaməti birmənalı olaraq MDB məkanından Qərb ölkələrinə başlıca olaraq Avropa ölkələrinə doğru yönəlmişdir və bununla da respublikamızda ixracatın əsas istiqamətləri formalaşmışdır. Hazırda Azərbaycan Respublikası 60-dan çox uzaq xarici ölkələrlə faydalı ticarət əlaqələri saxlayır. Azərbaycanın uzaq xarici ölkələr üzrə əsas tərəfdaşları Türkiyə, BƏƏ, Almaniya, İran, Böyük Britaniya, İtaliya, Avstraliya və s. dövlətlərdir. 2004-cü il Azərbaycan Respublikasının uzaq xarici ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi 5.303.8 min dollara çatmışdır ki, bunun da 3.000.0 min dollarını ixracat və 2.303.8 min dollarını isə idxalat təşkil etmişdir. Göründüyü kimi, 2004-cü ildə Azərbaycanın uzaq xarici ölkələrlə ticarət balansı müsbət saldo olaraq 696.2 min dollar təşkil etmişdir. Statistik göstəricilərə görə Azərbaycanın xarici ticarət dövriyyəsinin ümumi həcmində uzaq xarici ölkələrin xüsusi çəkisi 74,5%, o cümlədən ixracatda 83%, idxalatda isə 65,7% olmuşdur. Bu rəqəmlər respublikamızın ümumi əmtəə dövriyyəsində uzaq xarici ölkələrin xüsusi çəkisinin artmasını və xüsusən onun ixracatının inkişaf etməsinin mühüm xüsusiyyəti kimi özünü əks etdirir.

Azərbaycan Respublikasının xarici ticarət strategiyasının ən mühüm istiqamətlərindən biri ölkənin ixrac imkanlarının artırılması, onun strukturunun təkmilləşdirilməsi, beynəlxalq standartlar və normalara uyğun olan rəqabət qabiliyyətli məhsullarla dünya bazarına çıxmasıdır.

Azərbaycanın ixrac potensialının əhəmiyyətli surətdə artırılması ölkəmizdə bir sıra mühüm problemlərin əsaslı və düşünülmüş şəkildə həyata keçirilməsi ilə əlaqədardır. Bu baxımdan Azərbaycanın ixrac potensialının artırılmasının mühüm problemlərindən biri ixrac strukturunun təkmilləşdirilməsidir. Azərbaycan Respublikasının ixracının hazırkı strukturunun təhlili göstərir ki, ixracın 85%-ə qədərini xammal, yarımfabrikatlar və əsasən neft ixracına yönümlü məhsullar təşkil edir. Azərbaycan Respublikasında ixracın əsasən neft yönümlülüyü özünü respublikamızın dövlət büdcəsinin formalaşmasında daha aydın əks etdirir. Hazırda Azərbaycanın dövlət büdcəsinin təqribən 65%-ni neft gəlirləri təşkil edir və bu ölkənin neft ixracından asılı olduğunu göstərir. Şübhəsiz belə vəziyyət gələcəkdə neft məhsulunun tükənməsi və ya neft qiymətinin dəyişməsi hesabına ölkənin büdcə gəlirlərinin formalaşmasında çox ciddi problemlər yarada bilər. Ona görə də gələcəkdə neft və digər xammal məhsullarının tükənməsi və eləcə də dünya bazarında xammal qiymətlərinin qeyri-sabit olması və onun azalmağa olan meylini nəzərə alsaq, Azərbaycan Respublikasının ixracının hazırkı strukturunu qənaətbəxş hesab etmək olmaz. Buna görə də ölkəmizdə əmtəə ixracatı siyasətinin dəyişdirilməsinin, xammal emalının keyfiyyətinin yüksəldilməsi, hazır məhsul istehsalının və ixracatının artırılması Azərbaycanın ixrac siyasətinin ən başlıca vəzifələrindən biridir. Bu baxımdan Azərbaycanın ixrac strategiyası, ölkəmizin dünya təsərrüfatına qarşılıqlı səmərəli əsaslarda inteqrasiyasını nəzərə alaraq, xammal, material və təbii resurs ixracını tədricən hazır məhsul ixracı ilə əvəzləməyi qarşısına mühüm məqsəd kimi qoymalıdır.

Azərbaycan Respublikası hazırkı şəraitdə dünya bazarında rəqabət aparmaq iqtidarında olan məhsullar ixrac etmək imkanlarına malikdir. Buna neft maşınqayırması, metallurgiya, ərzaq sənayesi kimi sahələri və eləcə də müəyyən xidmət sahələrini aid etmək olar. Bununla əlaqədar olaraq belə bir cəhəti də qeyd edək ki, respublikamızda işçi qüvvəsinin inkişaf etmiş ölkələrdən xeyli ucuz olması ixrac məhsullarının daha rəqabət qabiliyyətli olmasına səbəb olan mühüm amil kimi çıxış etməsi Azərbaycanın dünya bazarında rəqabət aparmasına müəyyən imkanlar yaradır. Bununla yanaşı, Bakı və Sumqayıtda yerləşən iri neft emalı və kimya sənayesi müəssisələrinin ixrac imkanlarından geniş istifadə etməklə həmin sahənin məhsullarını dünya bazarına çıxarmaq olar.

Azərbaycanın ixrac potensialının artırılması üçün mühüm amillərdən biri ixrac yönümlü sahələrin stimullaşdırlımasıdır. Dünya ölkələrinin təcrübəsi göstərir ki, dövlət və həm də xüsusi müəssisələrin ixrac əməliyyatlarının stimullaşdırılmasına dövlət yardım fondunun yaradılması ixracın genişləndirilməsinə və ixrac məhsullarının keyfiyyətinin yüksəldilməsinə səbəb olur. Bu baxımdan Azərbaycanın ixracat potensialının artırılmasının mühüm amillərindən biri ixrac yönümlü sahə və müəssisələrə, xarici bazarlara rəqabət qabiliyyətli məhsullarla çıxa bilməsi üçün onlara dövlət tərəfindən müxtəlif formalarda yardım göstərilməsidir. Belə yardım həm birbaşa (dotasiyalar və güzəştli kreditlər verilməsi, onların xammalla təmin olunması, ixracın stimullaşdırılması və s.), həm də dolayı formada (vergi qoyulması sahəsində güzəştlər edilməsi, ixracın sığortalanması və s.) tədbirlər həyata keçirilməlidir.

Qeyd edək ki, ixraca yardım fondunun mənbəyi müxtəlif mənbələr hesabına formalaşır. Yardım fondunun vəsait mənbəyini dövlət büdcəsi ilə yanaşı, yerli ixracatçılar tərəfindən məhsul satışından müəyyən məbləğin ayrılması və eləcə də beynəlxalq təşkilatlardan alınan kreditlər və yardımlar təşkil edir. Qeyd edək ki, ixrac sahələrinin dövlət vəsaiti hesabına genişləndirilməsi nümunəsi bütün ölkələrdə mövcuddur. Hazırda dünya ölkələrinin xüsusən yeni sənaye ölkələrinin təcrübəsində ölkənin valyuta ehtiyatlarının artırılması məqsədilə dövlət yardımı siyasətindən geniş istifadə olunur. Lakin, respublikamızda ixracın stimullaşdırılması və ixrac yönümlü sahə və müəssisələrin istehsalçılarına dövlətlər tərəfindən yardım göstərilməsi barədə hələ qanunun olmaması müəyyən problemlər yaradır.

Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi və onun tərkib hissəsi olan ixrac potensialının artırılmasının mühüm amillərindən biri də beynəlxaq xidmətlər sahəsində aparılan ticarətdir. Məlumdur ki, beynəlxaq mübadilə münasibətlərinin obyektləri kimi bir çox xidmət növləri beynəlxalq ticarət dövriyyəsində bu və ya digər formada çıxış edir. Məsələn, respublikamızda beynəlxaq xidmətlər ixracının mühüm istiqamətlərindən biri kimi intellektual məhsul ticarəti (lisenziya, patent, təhsil və s. kimi məhsullar ticarəti) çıxış edə bilər. Bu baxımdan Azərbaycanda hələ də istifadə edilməyən böyük potensial mövcuddur. Lakin respublikamızda beynəlxalq xidmət sahələrinin inkişafı üçün geniş imkanların olmasına baxmayaraq, müasir şəraitdə Azərbaycanın milli ixracatçılarının təklif etdikləri xidmətlərin az sayda olması və eləcə də xarici bazarlarda milli xidmətlərin aşağı rəqabət qabiliyyətinin olması nəticəsində Azərbaycanın xarici ticarət dövriyyəsində və ticarət balansında beynəlxalq xidmətlər ticarəti hələ çox az yer tutur.

Beynəlxalq xidmətlər ticarətinin Azərbaycan Respublikasında hələ lazımi səviyyədə inkişaf etməməsinə mane olan əsas səbəblər dünya standartlarının tələblərinə cavab verməyən rabitə kommunikasiya sisteminin, mehmanxana təsərrüfatının, nəqliyyat, maliyyə xidmətləri bazarının olması və ölkəmizdə kifayət qədər inkişaf etməmiş turizm sənayesi ilə əlaqədardır.

Azərbaycan Respublikasının ixrac əməliyyatlarının artırılması işçi qüvvəsinin ixracatı vasitəsilə də həyata keçirilə bilər.

Müasir dövrdə işçi qüvvəsinin ixracatı bazar iqtisadiyyatına xas olan mühüm obyektiv bir prosesdir. Qeyd edək ki, Sovetlər Birliyi dağıldıqdan sonra xarici ölkələrə gediş-gəlişin asanlaşdırılması və eləcə də respublikamızda müsbət demokratik dəyişikliklərin yaranması ölkəmizdə işçi qüvvəsinin ixracatı üçün əlverişli şərait yaratmışdır. Respublikamızdan xarici ölkələrə axan işçi qüvvəsinin dəqiq sayı barədə rəsmi məlumat olmasa da mütəxəssislərin fikrinə görə, onların sayının təqribən 700 000 nəfər olması ehtimal olunur ki, bu da respublika əhalisinin ümumi gəlirlərində müəyyən rola malikdir. Məsələn, Rusiyada işləyən Azərbaycan miqrantlarından gələn illik gəlir mütəxəssislərin hesablamalarına görə 700 mln. dollardan 1 mlrd. dollara qədərdir. Bu baxımdan böyük işçi qüvvəsi potensialına malik olan Azərbaycan Respublikası öz mütəxəssislərini başqa ölkələrə işləməyə göndərməklə də işçi qüvvəsinin ixracatından ölkəyə xeyli kəmiyyətdə valyuta gətirilməsini təmin edə bilər.

Azərbaycanın xarici ticarət əlaqələrinin və eləcə də onun ixrac potensialının genişləndirilməsi sahəsində qarşıda duran vacib problemlərdən biri Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına tam hüquqlu üzv olmasıdır (Bildiyimiz kimi 1998-ci ildən Azərbaycan ÜTT-da müşahidəçi statusu almışdır).

Azərbaycanın ÜTT-na daxil olması respublikamızın ixrac potensialının artırılmasına və ixracın strukturunun təkmilləşdirilməsinə kömək edəcək və eləcə də Azərbaycanın bu quruma daxil olması dünya bazarına xas olan güclü rəqabət şəraitində yerli istehsalçıların hüquqlarının qorunmasını təmin edəcəkdir.

Azərbaycanın ÜTT-na üzv olması üçün aşağıdakı zəruri tədbirlərin həyata keçirilməsi vacib şərtlərdir:

- Azərbaycan mənşəli əmtəə və xidmətlərin dünya bazarlarına əlverişli və qeyri-diskriminasiyalı şərtlərlə daxil olmasını təmin etmək;
- Ölkənin ixrac potensialının gücləndirilməsi və ümumiyyətlə ixracın strukturunun tərkibinin təkmilləşdirilməsi;
- ÜTT-nın prinsip və qaydalarından istifadə edib açıq iqtisadiyyat şəraitində yerli istehsalçıların hüquqlarının qorunmasının təmin edilməsi.

## ЭКСПОРТНЫЙ ПОТЕНЦИАЛ АЗЕРБАЙДЖАНА И ПРОБЛЕМЫ ЕГО РОСТА

**А.А.КАСУМОВ**

**РЕЗЮМЕ**

На современном этапе внешняя торговля в системе связей активного сотрудничества, проводимого Азербайджанской Республикой с мировыми странами в области

экономики, политики, культуры, технологии и др., занимает важное место. Во внешней торговле, как важная форма международных экономических отношений внешняя торговля создает благоприятные условия для реализации преимуществ конкурентоспособности национального продукта, приводит к экономическому росту и в итоге развитию национальной и мировой экономики. В статье исследуются развитие внешнеторговых связей Азербайджана, вопросы роста экспортного потенциала нашей страны и обладание возможности ее экспортировать конкурентоспособных продуктов в мировых рынках на основе анализа конкретных статических материалов. По позиции автора, одной из направлений стратегии внешней торговли Азербайджана является рост экспортных возможностей нашей страны, усовершенствования его структуры, занимать достойное место в мировых рынках с конкурентоспособными продуктами, соответствующими международным стандартам и нормам. Кроме того в статье предлагаются предложения и рекомендации для стимулирования экспорто устремленных отраслей и предприятий в росте экспортного потенциала нашей страны и в то же время для вхождения в мировые рынки конкурентоспособными продуктами на основе государственной помощи в разнообразных формах.

**EXPORT POTENTIAL OF AZERBAIJAN**
**AND THE PROBLEMS RELATING TO ITS INCREASE**

**A.A.GASIMOV**

**SUMMARY**

Nowadays foreign trade occupies a very important place in the productive co-operation of Azerbaijan with world countries in the field of economy, policy, culture, technology and others.

Foreign trade as a significant form of International Economic Relations, creates tremendous conditions for the setting of competitive capacity of national product, economic growth and on a large scale stimulates the development of world economy.

The article presents the research of the development of economic relations in Azerbaijan, competitive capacity of national product that provides economic growth and development of national and world economy.

According to the view of the author one of the trends of the foreign trade policy is the growth of the export possibilities of our country , perfection of its structure and the competitive possibilities.

The articles provides proposals and recommendations for the stimulation of the creating of enterprises with the exporting capacity and entering the world market with the products that can stand competition and difference forms of state assistance .